# 2011-ci il dövlət büdcəsi layihəsinin Milli Məclisdə müzakirəsi ilə bağlı Azərbaycan Respublikasının Maliyyə Naziri cənab Samir Şərifovun çıxışı

Hörmətli sədr !
Hörmətli millət vəkilləri !
Xanımlar və cənablar !

«2011-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanun layihəsi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilmişdir.

Milli Məclisin bu günkü geniş iclasından əvvəl 2011-ci il dövlət büdcəsinin layihəsi Milli Məclisin bütün komitələrində hökumətin nümayəndələrinin iştirakı ilə fəal şəkildə müzakirə edilmiş və onun Milli Məclisin müzakirəsinə cıxarılması təklif olunmuşdur.

Qanun layihəsi ilə birlikdə, həmçinin büdcə zərfinə daxil olan digər sənədlər, o cümlədən 2011-ci il və sonrakı üç il üçün icmal və dövlət büdcələrinin proqnoz göstəriciləri, ölkənin makroiqtisadi proqnozu ilə bağlı ətraflı izahat və yardımçı məlumatlar təqdim olunmuşdur.

Hörmətli millət vəkilləri !

Müzakirənizə təqdim olunmuş 2011-ci il üçün dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ərzində ölkəmizdə həyata keçirilmiş uğurlu sosial-iqtisadi inkişaf strategiyasının nəticələri nəzərə alınmaqla, növbəti illərdə də davamlı iqtisadi artım üçün müvafiq kəmiyyət və keyfiyyət təminatı yaradır.

Dövlət büdcəsinin layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ölkənin əsas makroiqtisadi proqnoz göstəriciləri, mövcud sosial-iqtisadi vəziyyəti

və ortamüddətli inkişafına təsir göstərən daxili və xarici amillər, o cümlədən 2010-cu ilin ötən səkkiz ayı ərzində Azərbaycan iqtisadiyyatının inkişafının nəticələri qiymətləndirilməklə tərtib edilmişdir.

2011-ci il dövlət büdcəsinin layihəsinin tərtibi zamanı cari ilin ötən səkkiz  ayı ərzində ölkənin makroiqtisadi göstəricilərinin və dövlət büdcəsinin icra vəziyyəti təhlil olunmuşdur.

2010-cu ilin ötən səkkiz ayı ərzində ölkənin əsas makro-iqtisadi göstəricisi olan ümumi daxili məhsulun real artımı ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz təşkil etmiş, onun adambaşına düşən məbləği 2,7 faiz artmışdır.

Həmin dövr ərzində əhalinin gəlirləri 11,0 faiz artmaqla 5,7 faiz səviyyəsində müşahidə olunan inflyasiyanı xeyli üstələmişdir.

Ölkənin maliyyə mövqeyinin göstəricisi olan valyuta ehtiyatlarının həcmi cari ilin əvvəlinə nisbətən təxminən 6,1 milyard ABŞ dolları və ya 29,9 faiz artaraq 26,5 milyard ABŞ dollarına çatmışdır. Ölkədə manatın sabitliyinin təmin edilməsi əhalinin banklara olan inamını daha da artırmış, əhalinin banklardakı əmanətləri keçən ilin yeddi ayı ilə müqayisədə 35,8 faiz artaraq 2,7 milyard manat, *kreditlərin* həcmi isə 19,7 faiz artaraq 8,7 milyard manat olmuşdur.

Ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 5,2 milyard manat, o cümlədən daxili mənbələr hesabına 4,1 milyard manat investisiya qoyulmuşdur ki, bunun da təxminən 2,0 milyard manatı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

İlkin məlumatlara əsasən cari  ilin doqquz ayında dövlət büdcəsinin gəlirləri 93,6 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə 269,5 milyon manat və yaxud 3,7 faiz çox təmin edilmişdir.

Dövlət büdcəsinin xərcləri 83,9 faiz, icra olunmuşdur ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 5,9 faiz çoxdur.

Bu ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 100,0 faiz, xərclərinin 99,0 faiz ətrafında icra olunacağı gözlənilir.

Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı, onun böhrana qarşı dayanıqlığı beynəlxalq maliyyə-kredit institutlarının və ekspertlərinin də nəzərindən qaçmamış, "Fitch Ratings" beynəlxalq kredit reytinq agentliyi tərəfindən 2010-cu ildə ölkəmizə tarixində ilk dəfə olaraq investisiya səviyyəli "BBB-" beynəlxalq kredit reytinqi verilmişdir.

Hesab edirik ki, 2010-cu il - dövlətimizin siyasi və iqtisadi qüdrətinin daha da artması və iqtisadi təhlükəsizliyinin möhkəmlənməsi, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, həyata keçirilmiş işlərin, əldə edilmiş nailiyyətlərin həcmi baxımından ölkəmizin müasir tarixinə uğurlu bir il kimi daxil olmaqdadır.

## 1. 2011-ci il dövlət büdcəsinin göstəriciləri

Hörmətli millət vəkilləri !

Azərbaycan Respublikasının 2011-ci il üçün dövlət büdcəsinin layihəsi təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin arldıcıllıqla həyata keçirdiyi sosial-iqtisadi kursun davam etdirilməsi vəzifəsinin icrası üçün müvafiq maliyyə təminatının yaradılması zəminində hazırlanmışdır.

2011-ci il üçün dövlət və icmal büdcə layihələri hazırlanarkən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Azərbaycan dövlətinin inkişafı üçün müəyyən etdiyi strateci xəttə və öncül vəzifələrə uyğun olaraq iqtisadi və sosial islahatlara dəstək olmaqla, əhalinin sosial müdafiəsinin, ölkəmizin müdafiə potensialının, iqtisadi, enerji, ərzaq, ekoloci təhlükəsizliyinin möhkəmləndirilməsinə, regionların sosial-iqtisadi inkişafına və digər dövlət əhəmiyyətli məsələlərə dair qəbul olunmuş məqsədli dövlət

proqramlarının maliyyələşdirilməsinə diqqət yetirilmiş və müvafiq həcmlərdə vəsait nəzərdə tutulmuşdur.

Növbəti ildə əsas hədəflər sırasına iqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, regionların iqtisadi və xammal potensiallarından səmərəli istifadə edilməsi, dövlət büdcəsindən maliyyələşən sosial xidmətlərin səmərəliliyinin artırılması, maliyyə yardımlarının ünvanlılığının təmin edilməsi kimi vəzifələr də daxil edilmişdir.

2011-ci ildə vergi və qeyri-vergi gəlirlərinin yığım əmsalını artırmaq, vergi inzibatçılığını təkmilləşdirmək, vergi borclarının azaldılması üçün zəruri tədbirlər görmək qarşıda duran vəzifələrdəndir.

Eyni zamanda, innovasiya yönümlü sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, ayrı-ayrı istiqamətlər üzrə vergitutmanın optimallaşdırılması, yeni fəal təsərrüfat subyektlərinin yaranmasına yardım göstərilməsi istiqamətində işlər davam etdiriləcəkdir.

2011-ci ildə dünya bazarlarında rəqabətə davamlı, ölkənin daxili tələbatında əhəmiyyət kəsb edən məhsulların istehsalını genişləndirmək, kiçik və orta sahibkarlığın inkişafına dəstək olmaq, iqtisadiyyata sərmayə yatırımında ölkənin daxili resurslarının payını artırmaq, bu sahədə dövlət-özəl əməkdaşlıq mexanizminin tətbiqinə dair əməli addımların atılması qarşıda duran aktual məsələlər sırasındadır.

2011-ci il dövlət büdcəsinin layihəsinin tərtibi zamanı İqtisadi İnkişaf Nazirliyinin 2011-ci il üçün hazırladığı Azərbaycan Respublikasının makroiqtisadi proqnoz göstəriciləri, o cümlədən, ümumi daxili məhsulun 3,8 faizlik, qeyri-neft ümumi daxili məhsulun isə 7,2 faizlik artım sürəti əsas götürülmüşdür.

Ölkəmizin iqtisadiyyatının dünya iqtisadi-təsərrüfat sisteminə inteqrasiyası artığına beynəlxalq maliyyə və əmtəə bazarlarında cərəyan edən proseslərin, dünya iqtisadiyyatının ortamüddətli

inkişafı meyləri şübhəsiz ki, növbəti ilin büdcəsinin hazırlanması zamanı nəzərdən keçirilmişdir.

Müsbət amillər ondan ibarətdir ki, dünya iqtisadiyyatı son iki ilin sarsıdıcı böhranından qurtularaq yenidən artıma qədəm qoymuşdur.

Tənəzzülün başa çatmasına baxmayaraq iqtisadi artım və ümumi daxili məhsulun əvvəlki səviyyələrdə bərpa edilməsi əvvəl gözlənildiyindən daha çox vaxt tələb edəcək, yəni müsbət iqtisadi artım dünya miqyasında daha aşağı, daha yavaş olacaq.

Bir çox aparıcı inkişaf etmiş dövlətlər tərəfindən həyata keçirdikləri monetar ekspansiya tədbirlərinin kəskin surətdə məhdudlaşdırılması, büdcə xərclərinin və büdcə kəsirlərinin ixtisar edilməsi, sərt fiskal tədbirlərə üstünlük verilməsi qlobal miqyasda istehlaka nəticə etibarı ilə mənfi təsirlər göstərəcəkdir.

İqtisadi artıma əlavə təkan vermək məqsədilə bir sıra dönərli valyutaların məzənnələrinin düşünülmüş şəkildə ucuzlaşdırılması əsas xam malların və əmtəələrin qiymətinin spekulyativ şəkildə kəskin, lakin zənnimizcə uzun çəkməyəcək, bahalaşmasına gətirib çıxara bilər.

Sadalanan xarici təsir faktorlarını nəzərə alaraq 2011-ci il üçün dövlət büdcəsi tarazlı şəkildə tərtib olunmuşdur. 2011-ci il üzrə büdcə xərclərinin mülayim artımı nəzərdə tutulub.

Bununla belə 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan xalqının maddi güzəranının yaxşılaşdırılması istiqamətində imzaladığı növbəti sərəncamlarından irəli gələn tədbirlərin həyata keçirilməsi üçün 2011-ci il dövlət büdcəsində müvafiq maliyyə təminatı yaradılıb.

2011-ci il üçün dövlət büdcəsi layihəsi bir tərəfdən dövlət qarşısında duran əsas sosial öhtəliklərin yerinə yetirilməsi, prioritet inkişaf hədəflərinə nail olunması, digər tərəfdən isə makroiqtisadi sabitliyə xələl gətirməmək, inflyasiya meyllərinə rəvac verməmək məqsədlərini özündə birləşdirir.

Məhz yuxarıda sadalanan amilləri nəzərə almaqla 2011-ci il dövlət və icmal büdcələrin gəlir və xərclərinin artım sürətinə ehtiyatla yanaşılmış, dövlət büdcəsi gəlirlərinin hesablanmasında 1 barel xam neftin ixrac satış qiyməti 60 ABŞ dolları səviyyəsində götürülmüşdür.

2010-cu il dövlət büdcəsinin layihəsi və onun dəqiqləşdirilməsi, həmçinin 2009-cu il dövlət büdcəsinin icrasının Milli Məclisdə müzakirəsi zamanı hörmətli millət vəkillərinin, Hesablama Palatasının irəli sürdükləri təklif və tövsiyyələri öyrənilərək, onların bir çoxu 2011-ci il dövlət büdcəsi layihəsində nəzərə alınmışdır.

## 1.1. 2011-ci il dövlət büdcəsinin gəlirlərinin strukturu və əsas mənbələri

2011-ci il dövlət büdcəsinin gəlirləri 12 milyard 61 milyon manat səviyyəsində proqnozlaşdırılır və yaxud 2010-cu ilin proqnozuna nisbətən 4,8 faiz çox nəzərədə tutulur.

Vergilər Nazirliyi xətti ilə 2011-ci ildə 4 milyard 420 milyon manat və ya 2010-cu ilin eyni göstəricilərinə nisbətən 1,1 faiz az daxilolmalar proqnozlaşdırılır.

Vergi daxilolmalarının 62,0 faizi və ya 2 milyard 740 milyon manatı qeyri-neft sektorunun payına düşür ki, bu da cari illə müqayisədə 240,0 milyon manat vəf ya 9,6 faiz çoxdur. Neft sektorundan vergi daxilolmaları 38,0 faiz və yaxud 1 milyard 680 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da 2010-cu illə müqayisədə 290,0 milyon manat və ya 14,7 faiz azdır.

Dövlət Gömrük Komitəsi xətti ilə dövlət büdcəsinə 1 milyard 120 milyon manat məbləğində daxilolmalar nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 1,8 faiz çox deməkdir.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 6 milyard 480 milyon manat təşkil edəcəkdir. Dövlət büdcəsinin sair daxilolmaları 41,0 milyon manat səviyyəsində proqnozlaşdırılır ki, bu da 2010-cu illə müqayisədə 21,0 milyon manat və ya 2 dəfə çoxdur.

## 1.2. 2010-cu il dövlət büdcəsinin xərclərinin strukturu və əsas istiqamətləri

2011-ci il dövlət büdcə layihəsinin tərtibi prosesində büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatların qarşısında qoyulmuş vəzifələrin icrası üçün sabit maliyyə təminatı nəzərdə tutulmuş, müdafiə olunan və ona bərabər tutulan xərc maddələri üzrə isə mövcud normativlər çərçivəsində sifarişləri tam nəzərə alınmışdır.

2011-ci il dövlət büdcəsinin xərcləri 12 milyard 748 milyon manat təşkil edəcəkdir ki, bu da 2010-cu ilə nisbətən 3,9 faiz çoxdur.

Dövlət büdcəsinin xərclərinin 55,3 faizi və ya 7 milyard 43 milyon manatı cari xərclərə, 42,0 faizi və ya 5 milyard 358 milyon manatı əsaslı xərclərə, 2,7 faizi və ya 347,0 milyon manatı dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcəkdir.

Müvafiq olaraq 2010-cu illə müqayisədə 2011-ci il dövlət büdcəsi xərclərinin tərkibində cari xərclərin xüsusi çəkisi 1,6 faiz azalmış, əsaslı xərclərin xüsusi çəkisi 1,3 faiz, dövlət borcuna xidmətlə bağlı xərclərin xüsusi çəkisi 0,4 faiz artmışdır.

2011-ci il dövlət büdcəsindən məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı üçün xərclərin 42,3 faizi həcmində və yaxud 5 milyard 390 milyon manat vəsait ayrılacaqdır.

Funksional istiqamətlər üzrə bu ilə nisbətən 2011-ci ildə dövlət büdcəsinin cari xərclərinin tərkibində sosial müdafiə və sosial təminat xərclərinin xüsusi çəkisi 0,7 faiz artaraq 10,4 faizə, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri 0,4 faiz artaraq 3,5 faizə, səhiyyə xərcləri 0,2 faiz artaraq 4,3 faizə, mənzil-kommunal təsərrüfatı xərcləri 0,2 faiz artaraq 1,8 faizə, mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələri xərcləri 0,1 faiz artaraq 1,6 faizə, elm xərcləri 0,1 faiz artaraq 0,9 faizə, əsas bölmələrə aid edilməyən

xərclər 6,3 faiz artaraq 15,0 faizə çatmış, təhsil xərclərinin xüsusi çəkisi isə 10,5 faiz səviyyəsində saxlanılmışdır. Dövlət əsaslı vəsait qoyuluşu xərclərinin xüsusi çəkisi isə 7,4 faiz azalaraq 26,5 faiz təşkil etmişdir.

Dövlət əsaslı vəsait qoyuluşu xərclərinin azalmasına baxmayaraq, yuxarıda qeyd olunan sahələrə bu mənbədən əlavə olaraq müvafiq məbləğlərdə vəsait ayrılacaqdır.

İqtisadi təsnifata uyğun olaraq 2011-ci il dövlət büdcəsində əsas fondlara əsaslı vəsait qoyuluşu xərclərinə 42,0 faiz, əməyin ödənişi xərclərinə 20,5 faiz, təqaüdlər və sosial müavinət xərclərinə 9,9 faiz, dərman, sarğı ləvazimatlarının və ərzaq məhsullarının alınması xərclərinə 2,8 faiz, nəqliyyat, kommunal və kommunikasiya xidmətləri haqqının ödənilməsi xərclərinə 2,8 faiz, abadlaşdırma, geoloci-kəşfiyyat və topoqrafiya-geodeziya axtarış xidmətləri haqqının ödənilməsi xərclərinə 1,3 faiz, sair xərclərə 9,9 faiz, digər xərclərə isə 10,8 faiz vəsait nəzərdə tutulmuşdur.

### 1.2.1. Sosialyönümlü xərclərin əsas istiqamətləri

Hörmətli millət vəkilləri!

2011-ci ildə də əhalinin rifah halının, onun maddi təminatının yaxşılaşdırılması ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi kursun prioritet istiqamətini təşkil edəcəkdir.

Sosialyönümlü xərclərin büdcədəki xüsusi çəkisi 33,3 faiz və yaxud mütləq ifadədə 4 milyard 234 milyon manat olmaqla cari ilə nisbətən 8,8 faiz artımla proqnozlaşdırılmışdır.

Ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu zəminində ölkə prezidentinin 2010-cu ilin sentyabr ayında imzaladığı silsilə sərəncamlarla vəzifə maaşları Vahid Tarif Cədvəli ilə tənzimlənən

elm, təhsil, səhiyyə, mədəniyyət, kənd təsərrüfatı və digər sahələrdə işləyənlərin, hərbi qulluqçuların, xüsusi rütbəsi olan əməkdaşların və dövlət qulluqçuları olmayan mülki işçilərin aylıq vəzifə maaşlarının, habelə, yaşa görə əmək pensiyasının baza hissəsinin, şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün, məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin, doktorantlar, ali, orta ixtisas və peşə təhsili tələbə və şagirdlərinə verilən təqaüdlərin və ölkə üzrə digər sosial ödənişlərin artımı təmin edilmişdir.

Bu artımların tətbiqi ilə bağlı cari ilin dövlət büdcəsində ayrılan vəsaitlərlə yanaşı, 2011-ci il dövlət büdcəsində 500,0 mln. manatadək vəsait nəzərdə tutulmuşdur ki, bu da təxminən 3,0 milyon nəfər əhalinin güzəranının daha da yaxşılaşmasına imkan verəcəkdir.

2011-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, bədən tərbiyəsi və gənclər siyasəti xərcləri üçün 3 milyard 519 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2010-cu illə müqayisədə 7,5 faiz və yaxud 247,0 milyon manat çoxdur .

Bütövlükdə həmin sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 27,7 faizə çatmaqla 2010-cu illə müqayisədə 1,1 faiz artmışdır.

2011-ci il dövlət büdcəsində ilk dəfə olaraq ali təhsil sistemində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə əlaqədar təhsil xərclərində müvafiq məbləğdə vəsait nəzərdə tutulmaqla adambaşına xərclərin proqnozlaşdırılması sisteminin tətbiqinə başlanılmışdır.

2011-ci il dövlət büdcəsində sosial sahələr üzrə məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı üçün 320,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2011-ci ildə bir sıra proqram və tədbirlərin, o cümlədən elmi-tədqiqat layihələrinin Elmin İnkişaf Fondu vasitəsi ilə həyata keçirilməsi üçün 5,0 milyon manat, respublikanın təhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı üçün 16,4 milyon manat, məktəbəqədər təhsilin maliyyələşdirilməsi ilə bağlı xərclər üçün 9,2 milyon manat, şagirdlərin pulsuz dərsliklərlə təmin olunması xərcləri üçün 8,1 milyon manat, «Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı» üçün 21,7 milyon manat, «Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı» üçün 16,0 milyon manat, «Şəkərli diabet üzrə Dövlət Proqramı» üçün 11,7 milyon manat, «Onkoloci xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı» üçün 14,4 milyon manat, «Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı» üçün 4,4 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Vaxt məhdudiyyətini nəzərə alaraq 2011-ci il dövlət büdcəsində nəzərdə tutulan proqram və tədbirləri tam sadalamaq istəmirəm.

### 1.2.2. Müdafiə və təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri

Dövlətin milli təhlükəsizlik strategiyasının tərkib hissəsi olan Azərbaycan Respublikasının hərbi doktrinası da nəzərə alınmaqla ölkənin müdafiə xərcləri üçün dövlət büdcəsinin cari xərclərində 1 milyard 325 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Müharibə şəraitində olan və işğala məruz qalan ölkəmizin müdafiə potensialının daha da gücləndirilməsi, ordu quruculuğunun muasir tələblər səviyyəsinə çatdırılması və lazımi silah, sursat və avadanlıqlarla təchiz edilməsi istiqamətində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətinin maliyyə təminatı olaraq 2011-ci il dövlət büdcəsində xüsusi müdafiə təyinatlı

layihələrin və tədbirlərin maliyyə təminatı ilə bağlı xərclər üçün əlavə 1 milyard 87 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Eyni zamanda, 2011-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərində də müdafiə məqsədləri üçün müvafiq investisiya layihələri üzrə vəsait nəzərdə tutulur.

Bu vəsaitlər də nəzərə alınmaqla 2011-ci il dövlət büdcəsində müdafiə xərcləri üst-üstə 2 milyard 511 milyon manat vəsait təşkil edəcəkdir ki, bu da 2010-cu illə müqayisədə 1 milyard 187 milyon manat və yaxud 89,7 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin tərkibində müdafiə xərclərinin xüsusi çəkisi isə 10,7 faizdən 19,6 faizə çatmaqla demək olar ki, 2 dəfəyə qədər artmışdır.

Məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri dövlət büdcəsi xərclərinin 5,6 faizi həcmində olmaqla 2010-cu illə müqayisədə 0,1 faiz azalacaqdır.

Məhkəmə sisteminin müasirləşdirilməsi, hakim korpusunun genişləndirilməsi, məhkəmə ərazi yurisdiksiyasının müəyyən edilməsi və yeni məhkəmələrin fəaliyyətinin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərmanlardan irəli gələn vəzifələrin icrası olaraq dövlət büdcəsində 43,0 milyon manat vəsait nəzərdə tutulmuhdur ki, bu da 2010-cu illə müqayisədə 3,8 faiz və yaxud 1,6 milyon manat çoxdur.

### 1.2.3. Əsaslı xərclərin istiqamətləri

2011-ci il dövlət büdcəsinin əsaslı xərcləri 5 milyard 358 milyon manat təşkil edəcəkdir ki, bu da 2010-cu ilə nisbətən 357,0 milyon manat və yaxud 7,1 faiz çoxdur. Bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 2010-cu illə müqayisədə 1,3 faiz artaraq 42,0 faiz olacaqdır.

Əsaslı xərclərdən birbaşa dövlət əsaslı vəsait qoyuluşu xərclərinə 3 milyard 380 milyon manat vəsait yönəldiləcəkdir ki, bu da 2010-cu ilə nisbətən 778,0 milyon manat və ya 18,7 faiz azdır.

Ölkənin sosial-iqtisadi inkişaf məqsədlərinə uyğun olaraq daha əlverişli investisiya mühitinin təmin edilməsi və iqtisadi sabitliyin qorunması prinsiplərinə əsaslanaraq dövlət əsaslı vəsait qoyuluşu xərcləri ilk növbədə 2011-ci ildə tamamlanması nəzərdə tutulan layihələrin maliyyə təminatına yönəldiləcəkdir.

Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər nəzərə alınmadan əsaslı xərclərin 891,0 milyon manatı dövlət büdcəsinin müvafiq xərc bölmələrində öz əksini tapmaqla, sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı bina və qurğuların, yolların yenidən qurulması və əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin alınmasına yönəldiləcəkdir.

Dövlət büdcəsi ilə yanaşı, 2011-ci ildə Dövlət Neft Fondunun büdcəsindən bir sıra əsaslı xərclərin və dövlət tədbirlərinin maliyyələşdirilməsinə üs-üstə 349,0 milyon manat vəsait yönəldiləcəkdir.

### 1.2.4. Kənd təsərrüfatı, mənzil, kommunal, nəqliyyat, sənaye və tikinti xərclərinin əsas istiqamətləri

2011-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq, sənaye və tikinti, nəqliyyat və rabitə, mənzil-kommunal xərclərinə dövlət büdcəsindən 756,4 milyon manat vəsait ayrılacaqdır ki, bu da cari illə müqayisədə 11,7 faiz və yaxud 79,1 milyon manat çoxdur. Bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 0,5 faiz artaraq 5,9 faiz təşkil edəcəkdir.

Məqsədli olaraq «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nı həyata keçirmək üçün 111,6 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edən meliorasiya, irriqasiya və suvarma sistemlərinin stabil maliyyə təminatı üçün dövlət büdcəsinin cari xərclərindən 220,0 milyon manat, meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi, hidrometerologiya və digər ekoloci tədbirlərinin həyata keçirilməsi xərcləri üçün 22,0 milyon manat, torpaq islahatı, geodeziya-topoqrafiya, torpaq kadastrı və xəritəçəkmə tədbirlərin həyata keçirilməsi üçün 14,0 milyon manat vəsait ayrılacaqdır.

Ölkədə yolların yenidənqurulması və əsaslı təmiri, abadlıq işlərinin daha da genişləndirilməsi məqsədi ilə 374,0 milyon manat, o cümlədən abadlıq işləri üçün 138,0 milyon manat, yolların yenidənqurulması və əsaslı təmiri, istismarı və saxlanılması xərcləri üçün 236,0 milyon manat vəsait nəzərdə tutulmuşdur. Abadlaşdırma və yollara ayrılan vəsaitin 167,0 milyon manatı rayon və şəhərlərin küçə və yollarının xidmət və əsaslı təmiri xərclərinə yönəldiləcəkdir ki, bu da 2010-cu illə müqayisədə 13,2 faiz çoxdur.

Dövlət mülkiyyətində olan müəssisə və təşkilatlar tərəfindən göstərilən bir sıra iş və xidmətlər üzrə mövcud tariflərin həmin iş və xidmətlərin real maya dəyərindən aşağı olması və digər obyektiv səbəblərə görə istehsal prosesi ilə bağlı yaranan zərərin ödənilməsi, həmçinin, dövlət tərəfindən bir sıra müəssisə və təşkilatlara edilən maliyyə dəstəyi (subsidiya və cari transfert) üçün 2011-ci il dövlət büdcəsindən 272,0 milyon manat vəsait yönəldiləcəkdir.

Ölkənin sosial-iqtisadi inkişafında əhalinin həyat səviyyəsinin yaxşıllaşdırılması və onların məişət problemlərinin həlli üstün bir strategiya kimi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xalqa qayğısının təzahürü kimi ölkənin Kür-Araz çayları boyu 122 yaşayış məntəqəsində dövlət vəsaiti hesabına modul tipli sutəmizləyici qurğular quraşdırılaraq istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin ayrı-ayrı sərəncamları ilə 2007-2009-cu illərdə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan bu məqsədə 25,5 milyon manat vəsait ayrılmışdır.

Həmin qurğuların normal qaydada istifadə edilməsi məqsədi ilə 2010-cu il dövlət büdcəsinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 661,0 min manat vəsait ayrılmış və 2011-ci il dövlət büdcəsində bu məqsədə Xəzər dənizi sahili boyu tikilmiş çirkab suların təmizləyici qurğularının istismarı üçün 1,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq Azərbaycanın telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə yaradılmış «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinə 2011-ci il dövlət büdcəsində maliyyə təminatı nəzərdə tutulmuşdur.

### 1.2.5. İqtisadi fəaliyyət, əsas bölmələrə aid edilməyən və digər dövlət tədbirləri ilə bağlı xərclərin əsas istiqamətləri

Ölkəmizdə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan sahibkarlığa dövlət himayəsinin davam etdirilməsi məqsədilə 2011-ci ilin dövlət büdcəsində 34,0 milyon manat, eyni zamanda, dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə ayrılan dotasiya hesabına Muxtar Respublikada sahibkarlığa maliyyə dəstəyi üçün 6,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2011-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə veriləcək kreditlər üzrə xərclərə 10,0 milyon manat ayrılacaqdır.

Növbəti ildə «Aqrolizinq»in inkişafı üçün dövlət büdcəsində 35,0 milyon manat, eyni zamanda, dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə ayrılan dotasiya hesabına Muxtar

Respublikada «Nax.Aqrolizinq»in inkişafı üçün 2,5 milyon manat vəsait yönəldiləcəkdir.

Sosial ipoteka üçün 14,0 milyon manat vəsaitin İpoteka Fonduna ayrılması təmin ediləcəkdir.

Büdcə təşkilatlarının göstərdikləri xidmətlərə görə əldə etdikləri gəlirlər hesabına formalaşan büdcədənkənar xərcləri 152,0 milyon manat səviyyəsində proqnozlaşdırılır.

Növbəti ildə bələdiyyələrə dövlət dəstəyi olaraq dotasiya formasında 2010-cu ilin səviyyəsində və yaxud 3,5 milyon manat vəsait nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq 2011-ci il dövlət büdcəsində "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı dövlət büdcəsindən maliyyələşən təşkilatların xərclərinin təmin edilməsi üçün 10,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

### 1.2.6. Dövlət borcunun idarə edilməsi və digər dövlət tədbirləri ilə bağlı xərclər

Hörmətli millət vəkilləri!

2010-cu il 1 iyul tarixə beynəlxalq və digər maliyyə-kredit təşkilatları ilə 8,2 milyard ABŞ dolları məbləğində kredit sazişləri imzalanmışdır. İmzalanmış kredit sazişləri üzrə 3,4 milyard ABŞ dolları həcmində məbləğ artıq istifadə olunmuşdur.

İmzalanmış sazişlər hesabına istifadə edilmiş kreditlər üzrə hesablanmış xarici dövlət borcumuz 2010-cu il üçün gözlənilən ümumi daxili məhsulun 7,1 faizini təşkil edir.

2011-ci ildə dövlət büdcəsində dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər üçün 347,0 milyon manat və ya dövlət büdcəsi xərclərinin 2,7 faizi səviyyəsində vəsait ayrılacaqdır.

Diplomatik xidmət orqanlarının və konsulluqların saxlanılması xərcləri üçün 51,0 milyon manat, beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı, beynəlxalq proqramların həyata keçirilməsində Azərbaycan tərəfinin payı üçün 43,0 milyon manat, beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər üçün 18,0 milyon manat vəsait vəsait nəzərdə tutulmuşdur.

### 1.2.7. Dövlət büdcəsinin yerli xərcləri

2011-ci il dövlət büdcəsinin tərkib hissəsi olan yerli xərclər 1 milyard 308 milyon manat olacaqdır ki, bu da 2010-cu illə müqayisədə 113,0 milyon manat və yaxud 9,5 faiz çoxdur. Bütövlükdə dövlət büdcəsi xərclərinin 10,3 faizini yerli xərclər təşkil etməklə cari illə müqayisədə 0,6 faiz artmışdır.

Yerli xərcləri üzrə proqnoz layihəsinin tərtibi zamanı regionların sosial-iqtisadi inkişafı dövlət proqramından irəli gələn vəzifələr, əmək haqlarının artımı, son illərdə şəhər və rayonlarda aparılmış abadlıq və quruculuq işləri nəticəsində yeni infrastrukturların yaradılması, sosial təyinatlı obyektlərin tikintisi və yenidənqurulması nəticəndə bir sıra cari və əsaslı xərclərin təbii artımı nəzərə alınmışdır.

2011-ci il şəhər və rayonların yerli xərclərinin 858,0 milyon manatı və ya 65,6 faizi dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən verilən vəsait hesabına maliyyələşdiriləcəkdir ki, bu da 2010-cu ilə nisbətən 98,0 milyon manat və ya 12,9 faiz çoxdur.

Yerli xərclərin 58,7 faizi təhsil xərclərinə, 14,9 faizi səhiyyə xərclərinə, 14,2 faizi mənzil və kommunal təsərrüfatı xərclərinə, 6,2 faizi qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərclərinə, 4,7 faizi mədəniyyət, bədən tərbiyyəsi və idman xərclərinə, 1,3 faizi isə digər xərc bölmələri üzrə tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

### 1.2.8. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi

2011-ci il dövlət büdcəsinin kəsiri 687,0 milyon manat və ya ümumi daxili məhsulun 1,7 faizi həcmində nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 0,3 faiz azdır. Kəsirin maliyyələşdirilməsi ənənəvi olaraq xarici və daxili borclanma, habelə özəlləşmədən və büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar hesabına nəzərdə tutulur.

## 2. İcmal büdcənin göstəriciləri

Hörmətli millət vəkilləri!

İcazə verin, icmal büdcənin göstəriciləri barədə məlumat verim.

Azərbaycan Respublikasının 2011-ci il icmal büdcəsinin gəlirləri 15 milyard 558 milyon manat olmaqla 2010-cu ilə nisbətən 0,7 faiz, xərcləri 15 milyard 129 milyon manat olmaqla cari ilə nisbətən 5,9 faiz çox nəzərdə tutulmuşdur.

İcmal büdcəyə daxil olan Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olaraq 293,2 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2010-cu illə müqayisədə 7,9 faiz və ya 21,5 milyon manat çoxdur. Xərclərin 14,5 faizi və ya 42,6 milyon manatı Naxçıvan Muxtar Respublikasının öz gəlirləri, 85,5 faizi və ya 250,6 milyon manatı dövlət büdcəsindən ayrılan dotasiya hesabına formalaşacaqdı ki, bu da 2010-cu ilə nisbətən 19,1 milyon manat və ya 8,3 faiz çoxdur.

İcmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri 2010-cu ilə nisbətən 213,3 milyon manat və ya 12,1 faiz artımla proqnozlaşdırılılaraq 1 milyard 971 milyon manat təşkil edəcəkdir.

Dövlət Sosial Müdafiə Fondunun xərclərinin 691,0 milyon manatı dövlət büdcəsindən verilən transfert hesabına örtüləcəkdir ki, bu da 2010-cu illə müqayisədə 29,5 faiz və ya 157,2 milyon manat çoxdur.

Dövlət büdcəsindən ayrılan transfertin Fondun xərclərinin tərkibində xüsusi çəkisi cari illə müqayisədə 4,7 faiz artaraq 35,1 faiz təşkil edəcəkdir.

Dövlət Neft Fondunun büdcəsinin xərcləri 6 milyard 829 milyon manat olmaqla 2010-cu ilə nisbətən 433,7 milyon manat və ya 6,8 faiz çoxdur.

Dövlət büdcəsinə ayrılan 6 milyard 480 milyon manat transfertlə yanaşı, 2011-ci ildə Dövlət Neft Fondunun vəsaitindən digər dövlət əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsinə 349,0 milyon manat vəsait yönəldiləcəkdir.

2011-ci il icmal büdcə 428,2 milyon manat profisit, Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan isə 8 milyard 705 milyon manat və ya nəzərdə tutulan ümumi daxili məhsulun 21,7 faizi həcmində kəsrlə proqnozlaşdırılır.

Hörmətli Sədr!
Hörmətli Milli Məclisin 3-cü çağırış millət vəkilləri!

2006-cı ilin may ayında sizlərin əksəriyyətiniz tərəfindən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ölkənin sürətli iqtisadi artım və dinamik inkişafına təkan verdiyi sosial-iqtisadi kursuna-qəbul edilmiş 2006-cı il dövlət büdcəsinə düzəliş etməklə dəstək vermişdiniz.

Həmin dövrdən ötən illər ərzində Azərbaycan Respubliaksının Prezidentinin ölkə iqtisadiyyatının inkişafı istiqamətində apardığı uğurlu siyasət nəticəsində xalqın rifah halı xeyli yaxşılaşmış, yoxsulluq səviyyəsi kəskin sürətdə aşağı düşmüş, ölkə iqtisadiyyatı xeyli artmışdır.

Bu dövrdə dövlət büdcəsinin xərcləri 3,4 dəfə artaraq 3,8 milyard manatdan 12,7 miyalrd manata çatmışdır.

Bu gün müzakirənizə çıxarılmış 2011-ci il üçün dövlət büdcəsinin layihəsi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi kursun ardıcıl surətdə davam etdirilməsini, ölkəmizdə makroiqtisadi sabitliyin qorunmasını, əsas dövlət və sosial vəzifələrin uğurla həyata keçirilməsini, prioritet inkişaf hədəflərinə doğru məqsədyönlü irəlliyişi maliyyə baxımından təmin edəcəkdir.

Bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2011-ci il dövlət və icmal büdcə layihələrinin və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin bəyənilərək qəbul etməyə Sizi, hörmətli millət vəkilləri çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm!